TURAN-SAM * YIL: 2011 * CİLT: 3 * SAYI: 11 * YAZ 2011
TURAN STRATEJİK ARAŞTIRMALAR MERKEZİ DERGİSİ
www.turansam.org

**(6)**

# BEYNƏLXALQ VƏ MİLLİ HÜQUQDA UŞAQ HÜQUQLARI: MAHİYYƏTİ VƏ İNSAN HÜQUQLARI SİSTEMİNDƏ ONUN YERİ

**Səidə HƏSƏNZADƏ Bəhram qızı**[38]

Özet: Çocuk düşünülen temsil edilmiş makalenin iç yasal özel sivil devrimin içindeki diğer katılımcıları kişi kesin karakter az onun yasal durumu tarafından herşeyden önce, belli edil veya durum. Bu bağlantının iç sadece kavram tanımı yasal durum çocuk yazar tarafından öneril ama ayrıca açıklan teorik ve aklı başında Ayrı biçimler izolasyonu için ihtiyaç yasal durum ergin olmayan, genel, özel ve tek.

Abstract: in the represented article the child is considered as special legal person with respect to other participants in the civil revolution. The specific character of minor is evinced, first of all, by its lawful position or status. In this connection not only the definition of the concept of legal status of child is proposed by the author, but also is explained the theoretical and practical need for the isolation of the separate forms of legal status of minor, such as general, special and individual

**Keywords:** lead statute, child, general statute, special statute, individual statute.

Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsi beynəlxalq hüquqda uşaq hüquqlarını tənzim edən normalara tamamilə müvafiq olaraq ailə və uşaqların dövlətin himayəsində olduğunu təsbit etmişdir. 18 mart 2009-cu il tarixdə referendum yolu ilə Konstitusiyanın 17-ci maddəsinə müvafiq dəyişikliklər edilmişdir. Belə ki, orada valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqların dövlət himayəsində olduğu, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etməyin, o cümlədən 15 yaşına çatmamış uşaqların işə qəbulunun qadağan edildiyi və uşaq hüquqlarının həyata keçirilməsinə dövlətin nəzarət etdiyi müddəası qeyd edilməklə, bu norma beynəlxalq hüquqa uyğunlaşdırılmış və mahiyyət etibarilə daha da təkmilləşdirilmişdir[39]. Son illər BMT-nin «Uşaqlara qarşı zorakılıq. Dünya Hesabatı» və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatları[40] uşaq hüquqlarının pozulmasına dair faktların artmağa meylli olduğunu təsdiq edir. Bu da uşaq hüquqlarının mühafizəsinə və müdafiəsinə diqqətin beynəlxalq və milli dövlət səviyyəsində artırılmasının nə dərəcədə aktual olduğunu bir daha şərtləndirir. Bu mənada uşaq hüquqlarının, ümumiyyətlə, bir fərd kimi «uşaq» anlayışının, onun statusunun müəyyən edilməsinin mühüm əhəmiyyəti vardır.

Uşaq hüquqları həm hüquqi cəhətdən, həm də bu hüquqların müdafiəsi baxımından özünəməxsus xüsusiyyətlərə malikdir. Buna görə də həmin hüquqlar bütövlükdə insan hüquqları, onların müdafiəsi və təminat sistemində xüsusi yer tutur. Uşaq hüquqları ailə və nikah hüququ, beynəlxalq hüquq, mülki hüquq və hüququn digər sahələri ilə qırılmaz bağlılıq təşkil edir. Buna görə də məsələnin tədqiqinə hər şeydən əvvəl «uşaq» anlayışı, «uşaq hüququ», «uşağın statusu» terminlərinin izahından başlamaq məqsədəmüvafiqdir. Belə ki, BMT-nin «Uşaq hüquqları Konvensiyası»nın 1-ci maddəsinə uyğun olaraq «hər bir insan 18 yaşına çatanadək bu Konvensiyanın məqsədləri üçün uşaq sayılır, bir şərtlə ki, həmin uşaq

---

[38] AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Beynəlxalq hüquq və beynəlxalq münasibətlər" şöbəsinin böyük elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru, Bakı/AZERBAYCAN.

[39] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009. s.10-11

[40] Uşaqlara qarşı zorakılıq, BMT-nin dünya hesabatı. Bakı, Çaşıoğlu nəş., 2007; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Məlumatı. Bakı, 2011

barəsində tərtib edilə bilən qanuna görə o, yetkinlik yaşına çatmamış olsun»[41]. Konvensiyada uşaqlıq dövrünün başlanğıc anı ilə bağlı hər hansı müddəa göstərilmir. Bununla belə hələ 1996-cı ildə Avropa Şurasının bioetika üzrə keçirilən sessiyasında alimlər yekdilliklə belə qərara gəlmişlər ki, uşaq ana bətninə düşdükdən 18 gün sonra artıq onu insan hesab etmək mümkündür[42]. Bunun uşaqlıq dövrünün başlanğıc mərhələsinin müəyyən edilməsi üçün əhəmiyyətini şişirtmədən demək olar ki, ana bətnində olan 18 günlük rüşeym bioloji və hüquqi baxımdan müəyyən nəticələr çıxartmaq üçün mühüm əhəmiyyət kəsb edir. Eyni mövqe insan hüquqları üzrə Amerika Konvensiyasının 4-cü maddəsində də öz təsdiqini tapmışdır. Elm birmənalı şəkildə təsdiq edir ki, ana bətninə düşdükdən 18 gün sonra, döldə ürək və əsəb sisteminin ilkin elementləri formalaşır, 12 həftədən sonra isə o tam fəaliyyət göstərir. Beyin isə 5 aylığında artıq tam formalaşmış olur. Bu da uşağın, başqa sözlə, insanın təşəkkül tapdığı zaman hesab oluna bilər. Buna görə də son illər insan həyatının başlanğıc anının, uşağın ana bətninə düşdüyü vaxtdan hesablanması mövqeyini dəstəkləyənlərin mövqeyi güclənmişdir. Bu təklifin tərəfdarları artıq aborta hamiləliyin pozulması kimi deyil, insan həyatına qəsd kimi qiymətləndirməyi təklif edirlər. L.N.Linik Rusiya Federasiyası Konstitusiyasının mənasına görə həyatın başlanğıc anının uşaqğın ana bətninə düşdüyü vaxtdan hesablanmasını təklif edir[43].

ABŞ prezidenti Corc Buş «Doğulmamış qurbanların zorakılıqdan müdafiəsi haqqında Akt» imzalamışdır. 24 həftəlik hamiləliyi olan qadınların abort etməsi və ya vaxtından əvvəl doğuşla bağlı uşağın ölməsi Nyu-York Ştatı Cinayət Məcəlləsinin 125.00 §-na görə cinayət məsuliyyəti yaradır. Rusiyalı mütəxəssis A.N.Popov isə birmənalı şəkildə uşağın ana bətninə düşdüyü vaxtı insan həyatının başlanğıc anı kimi qəbul etməyi təklif edir[44]. Dünyanın bir sıra ölkələrində bu baxımdan abort qadağan edilmişdir. Məsələn, İrlandiya qanunvericiliyi abortu qadağan etdiyi halda, Slovakiya Konstitusiyası insan həyatının mühafizəsinin hələ ana bətnində olarkən başlanmasının vacib olduğunu nəzərdə tutur[45].

Beynəlxalq hüquq normalarının məzmunu və mahiyyətinə uyğun olaraq «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikası Qanununda «uşaq» anlayışına aydınlıq gətirilərək, 1-ci maddədə göstərilir ki, uşaqların bu Qanunda nəzərdə tutulmuş hüquqları və vəzifələri 18 yaşına çatmamış hər bir şəxsə aid edilir[46]. Bu da onu göstərir ki, «uşaq» dedikdə, 18 yaşınadək olan şəxs başa düşülməlidir.

Mülki qanunvericilik 18 yaşınadək olan şəxsləri fəaliyyət qabiliyyətinə görə iki kateqoriyaya ayırır: Azərbaycan Respublikası Mülki Məcəlləsinin 28.3-cü maddəsinə uyğun olaraq fəaliyyət qabiliyyəti olmayan şəxslər – 7 yaşınadək; məhdud fəaliyyət qabiliyyətli şəxslər – 7 yaşından 18 yaşınadək olan şəxslər hesab olunurlar[47]. Beynəlxalq Konvensiya yetkinlik yaşının əsaslandırılmamış şəkildə aşağı həddə müəyyən etməyə icazə vermir. Konvensiyanın həyata keçirilməsinin monitorinqini aparmaq üçün təsis edilmiş «Uşaq Hüquqları Komitəsi»nin fəaliyyətindən aydın görünür ki, minimum yaş hədləri, xüsusən də nikah münasibətinə girmək və əmək fəaliyyətinə başlamaq üçün yaş hədləri tətbiq edilərkən Konvensiyanın tələbləri, uşaq maraqlarının üstünlüyü nəzərə alınmalı, ayrıseçkiliyə yol verilməməlidir. Bundan fərqli olaraq Mülki Məcəllənin 28.4-cü və 28.6-cı maddələrinə görə 18 yaşına çatmayan şəxslər müstəsna hallarda tam fəaliyyət qabiliyyətinə malik ola bilərlər. Belə ki, qanunvericiliyin tələbinə görə on altı yaşı tamam olan, əmək müqaviləsi üzrə işləyən və ya valideynlərinin, övladlığa götürənlərin, yaxud qəyyumun razılığı ilə sahibkarlıq

---

[41] Azərbaycan qanunvericiliyində uşaq hüquqları. Uşaq hüquqları haqqında Konvensiya. Bakı, Azərbaycan nəş., 2001. s. 536
[42] Медведева И., Шишова Т. Безмолвный крик // Советская Россия. 2000. 5 сентября; Романовски Г.Б. Право на жизнь. Архангельск, 2002. с. 12
[43] Линик Л.Н. Конституционное право на жизнь: Введение в теорию. Чебоксары, 2005. с.23
[44] Попов А.Н. Преступления против личности при смягчающих обстоятельствах. СПб., 2001. с.27
[45] Конституция Словацкой Республики от 1 сентября 1992 г. Прага, 1992
[46] Йени сянядляр. Ганун топлусу. Бакы, «Ганун» няш., 1998. № 15-16. s.15
[47] Азярбайъан Республикасынын Мцлки Мяъялляси. Бакы, «Щцгуг ядябиййаты» няш., 2008. s.14

fəaliyyətilə məşğul olan şəxs, qanunun yol verdiyi hallarda 18 yaşına çatmamış nikaha girən şəxs, buna misal ola bilərlər[48].

Uşaq hüquqlarının müdafiəsi və mühafizəsi istiqamətində tədqiqatlar apararkən bu məsələnin hüquqi tənzimlənməsinə önəm verilməsi vacibdir. «Uşaq» anlayışına beynəlxalq hüququn müxtlif normaları ilə yanaşı, Azərbaycan Respublikasının ailə, mülki, inzibati, əmək, cinayət və digər qanunvericiliklərində müəyyən baxışlar sistemi öz ifadəsini tapmışdır. Mülki Məcəllənin 25.2-ci maddəsinin tələbinə əsasən fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir[49]. Vərəsə olmaq hüququ isə ana bətninə uşağın düşdüyü andan yaranır. Fiziki şəxsin mülki hüquqi fəaliyyət qabiliyyəti o, yetkinlik yaşına çatdıqda, yəni 18 yaşı tamam olduqda tam həcmdə əmələ gəlir. Mülki Məcəllənin 28.3-cü maddəsinin tələbinə görə isə 7 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti yoxdur. 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti məhduddur. 16 yaşı tamam olmuş yetkinlik yaşına çatmayan şəxs əmək müqaviləsi üzrə işləyirsə, o, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Eləcə də 18 yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi hallarda, 18 yaşına çatmamış fiziki şəxs nikaha girdiyi vaxtdan tam fəaliyyət qabiliyyəti əldə etmiş olur. Buna görə də 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdlərin onların adından yalnız valideynlərin və ya qanunvericilikdə nəzərdə tutulmuş digər şəxslərin imzalaya bilməsi şərti nəzərdə tutulmuşdur. Bununla belə Mülki Məcəllənin 29-cu maddəsi 7-14 yaşlı şəxslərin hansı əqdləri imzalamaq hüququ olduğunu daha konkret olaraq təsbit edilir. 14-yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar Mülki Məcəllənin 30-cu maddəsində göstərilən əqdləri müstəqil şəkildə bağlamaq hüququna malikdirlər[50].

Azərbaycan Respublikası Əmək Qanunları Məcəlləsinin 42-ci maddəsinin 3-cü bəndinə əsasən 15 yaşına çatmış hər bir şəxs işçi kimi əmək müqaviləsində tərəf ola bilər[51].

Ailə Məcəlləsinin 49.1-ci maddəsinə görə «18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar»[52]. Bu norma eyni zamanda BMT-nin «Uşaq Konvensiyası»nın tələblərinə tam uyğundur.

Ümumiyyətlə, fiziki, əqli, psixi, mənəvi, tibbi, sosial və digər çoxsaylı komponentlər nəzərə alınaraq insan yalnız 18 yaşı tamam olduqda yetkinlik yaşına çatmış şəxs hesab edilir. Qanunvericilik müxtəlif şəxslərə qarşı müxtəlif yaş senzləri müəyyən etmişdir. Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələbinə görə 18 yaşına çatmış hər bir vətəndaşın seçmək, referenduma səs vermək, seçkiləri müşahidə etmək və digər hüquqları vardır[53]. Avropa Şurasının son məlumatları göstərir ki, indi dünyada 16 yaşı tamam olmuş hər bir şəxsin seçkilərdə səs vermək hüququnun tanınması barədə yeni mülahizələr irəli sürülməkdədir[54]. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinə əsasən 15 yaşına çatmamış şəxslər işə götürülə bilməzlər[55]. Ailə Məcəlləsinin 10-cu maddəsinə əsasən nikah yaşı kişilər üçün 18, qadınlar üçün 17 yaş müəyyən edilmişdir[56]. Azərbaycan Respublikası Konstitusiyasının 85-ci maddəsinə əsasən yaşı 25-dən aşağı olmayan hər bir vətəndaş Milli Məclisin deputatı, 100-cü maddəsinə əsasən yaşı 35-dən aşağı olmayan şəxs Azərbaycan Respublikasının Prezidenti, 30 yaşı tamam olmuş şəxs Baş nazir, yaşı 25-dən aşağı olmayan şəxs Azərbaycan Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyət orqanının rəhbəri vəzifəsini tuta bilərlər[57]. Konstitusiyanın 126-cı maddəsinə əsasən yaşı 30-dan aşağı olmayan şəxslər hakim seçilə bilərlər. 16 yaşına çatmış şəxslər dövlət qulluğuna

---

[48] Азярбайъан Республикасынын Мцлки Мяъялляси. Бакы, «Щцгуг ядябиййаты» няш., 2008. s.15
[49] Азярбайъан Республикасынын Мцлки Мяъялляси. Бакы, «Щцгуг ядябиййаты» няш., 2008. s.13
[50] Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2008. s.12-26
[51] Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009. s.57
[52] Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2006. s.55
[53] Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2010. s. 247-249
[54] "Azərbaycan" qəzeti. 20 iyun 2011-ci il. s.4
[55] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009. s.11
[56] Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2006. s.14
[57] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009. s.36, 48, 61, 63

qəbul edilə bilərlər[58]. Yaşı 20-dən aşağı olmayan şəxs polis orqanlarına işə qəbul edilə bilər. 30 yaşınadək olan şəxslər prokurorluğa işə qəbul edilə bilərlər. Bu kimi yaş senzinə dair digər çoxsaylı nümunələr də göstərmək mümkündür. İnsanın yaş və məktəb psixologiyası üzrə olan mütəxəssislər psixi və əqli cəhətdən uşaqları anadan olandan 1 yaşa qədər olan dövrü körpə yaş, 1 yaşdan 3 yaşa qədər olan dövrü ilkin uşaqlıq, 3 yaşdan 7 yaşa qədər olan dövrü məktəbəqədər yaş dövrü (bəzən bunu «bağça dövrü» də adlandırırlar), 7 yaşdan 12 yaşa qədər ibtidai məktəb dövrü, 12 yaşdan 15 yaşadək yeniyetmə dövrü, 15 yaşdan 18 yaşa qədər isə ilkin gənclik dövrü kimi təsnifata ayırırlar[59].

Beləliklə, beynəlxalq və milli hüquq normalarının təhlili göstərir ki, 7 yaşınadək olan uşaqların körpə, 7-14 yaşınadək olan uşaqların yeniyetmə, 14-16 yaşınadək olan uşaqların azyaşlı, 18 yaşınadək olan şəxslər isə ümumiyyətlə yetkinlik yaşına çatmayan şəxslər kimi qəbul edilirlər.

Planetin müxtəlif regionlarında, inkişaf etmiş və inkişaf etməmiş ayrı-ayrı dünya dövlətlərində yetkinlik yaşına çatmamışların hüquqlarının cinayətkar qəsdlərdən qorunmasına və müdafiə edilməsinə xüsusi diqqət yetirilir. Elə buna görə də hər il BMT-nin Uşaq Hüquqları Komitəsi yetkinlik yaşına çatmamışlara qarşı və onlar tərəfindən törədilən kriminal əməllərin statistikasını təhlil edir, əsas inkişaf istiqamətləri üzrə müvafiq qərarlar qəbul edir. «Uşaqlara qarşı zorakılıq üzrə Dünya Hesabatı» bu sahədə böyük narahatçılığa əsas verir[60].

Cəmiyyətdə və onun strukturunda baş verən köklü dəyişikliklər uşağın hüquqi statusunun daha müfəssəl öyrənilməsi, uşağın ailədə və cəmiyyətdə hüquqi vəziyyətinin müəyyən edilməsi zərurətini meydana çıxarır. «Status» dedikdə, hər hansı şəxsin cəmiyyətdəki hüquqi vəziyyətini səciyyələndirən əlamətlərin məcmusu başa düşülür. V.M.Sırıxın mövqeyinə görə «hüquqi status» şəxsin qanunvericiliklə hüquqlarının və vəzifələrinin məcmusudur[61]. Buna görə də müəyyən edilmiş «uşağın hüquqi statusu» anlayışının tədqiqinə xüsusi diqqət yetirilməsi vacibdir. «Uşağın hüquqi statusu» anlayışının tədqiq edilməsinin nəzəri və praktiki cəhətdən məqsədəuyğunluğu həm də ondan irəli gəlir ki, hüquq ədəbiyyatında bu məsələyə dair müxtəlif mövqelər mövcuddur. «Hüquqi status» anlayışı tərifinin işlənib hazırlanmasında xüsusi çətinlik onunla bağlıdır ki, hüquq ədəbiyyatında indiyədək hüququn xüsusi subyekti kimi «uşağın statusu» dürüst fərqləndirilməmişdir. M.V.Geller hesab edir ki, beynəlxalq və milli hüquqda «uşağın statusu» dedikdə, yetkinlik yaşına çatmayan şəxsin hüquqi vəziyyətini xarakterizə edən əlamətlərin cəmini və konkret şəxsdən – valideynlərdən törəyən birinci dərəcəli qan qohumu başa düşmək lazımdır. Buna görə də o, «uşaq» terminini «yetkinlik yaşına çatmayan» termini ilə əvəz etməyi məqsədəuyğun hesab edir[62].

Burada qeyd edilməsi zəruridir ki, hüquq ədəbiyyatında, ümumiyyətlə əsasən «vətəndaşın hüquqi statusu» institutu daha çox tədqiqata cəlb edilmişdir. Bu da onun cəmiyyətdəki vəziyyətinin tam müəyyən olunmasına edilən təşəbbüslərlə bağlıdır. Aydındır ki, dövlət vətəndaşın hüquqi vəziyyətinin formalaşması və onun hüquqlarının mükəmməl təmin edilməsi istiqamətində müəyyən qanunvericilik fəaliyyətinin həyata keçirilməsində maraqlıdır. Hüquq ədəbiyyatında düzgün olaraq qeyd edilir ki, şəxsiyyətin bu və ya digər ictimai münasibətlər sahəsində faktiki vəziyyəti onun hüquqi statusunu müəyyən edir[63]. Fikrimizcə, şəxsiyyətin, o cümlədən «uşağın hüquqi statusu» haqqında məsələyə vətəndaş kimi ona Azərbaycan Respublikasının qanunvericiliyi ilə verilmiş hüquqi imkanlar kontekstində nəzər yetirmək lazımdır. Burada söhbət ilk növbədə vətəndaşa Azərbaycan Respublikası Konstitusiyası ilə verilən hüquqi preroqativlərdən gedir. Bu da onun konstitusiya

---

[58] "Dövlət qulluğu haqqında" Qanun. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2011. s.37
[59] Моргун В.Ф.. Ткачева Н.Ю. Проблема периодизации развития личности в психологии. Учебное пособие. М., 1981. с.12
[60] BMT-nin "Uşaqlara qarşı zorakılıq üzrə Baş katibin Ümumdünya Hesabatı". BMT-nin nəşri, 2006. s.8-36
[61] Сырых В.М. Теория государства и права: Учебник. М.: ЗАО Юстицинформ, 2005, с.302
[62] Геллер М.В. Реализация и защита права несовершеннолетнего жить и воспитываться в семье по законодательству Российской Федерации: Дис. ... канд. юрид. наук. М., 2007, с.26
[63] Зайцев О.Б. Трудовая правосубъектность как правовая категория. Оренбург, 2006. с.55

statusunu müəyyən edir. Belə status özlüyündə vətəndaşın əsas hüquq və azadlıqlarının, vətəndaşlığın və hüquq subyektliyinin əsaslarını ehtiva edən hüquqi kateqoriyalar kompleksini nəzərdə tutur və Konstitusiyaya müvafiq olaraq bununla bağlı normativ-hüquqi aktların əsası kimi çıxış edir. Bu mənada bir fərd olaraq insanın, kollektivlə və ya cəmiyyətlə birlikdə götürdükdə şəxsiyyətin statusunun, onun hüquq qabiliyyətinin, fəaliyyət qabiliyyətinin və delikt qabiliyyətinin qanunvericiliklə dəqiq tənziminin nəzəri və təcrübi problemlərinin tədqiqi mühüm əhəmiyyət kəsb edir[64].

Uşağın «hüquqi vəziyyəti», «hüquqi statusu» anlayışlarının hüquqi təbiət etibarilə birmənalı olmaması həmin anlayışların kompleks xarakter daşıdığını göstərir və onlara müxtəlif aspektlərdən yanaşmanı zəruri edir. Çünki ümumi hüquq nəzəriyyəsində həmin anlayışlar əvvəllərdə olduğu kimi, indi də mübahisəli səciyyə daşıyan elementlərlə sıx bağlıdır. Bəzi müəlliflər hesab edirlər ki, «hüquqi vəziyyət» və «hüquqi status» anlayışlarının bir-birinə münasibətdə müstəqil anlayışlar olmasına baxmayaraq, onların eyniliyi istisna olunmur[65]. Digər tədqiqatçıların fikrincə isə, əksinə, bu anlayışların fərqləndirilməsi üçün əsas yoxdur, onlar öz məzmununa görə eyni anlayışlardır. Azərbaycan Sovet Ensiklopediyasında «həddi-buluğa çatmayan» ifadəsi «tam fəaliyyət qabuliyyətinə malik olma yaşına çatmamış şəxs» mənasında işlədilmişdir[66]. Ümumilikdə isə, əgər «yetkinlik yaşına çatmaq» ifadəsi insanın fiziki, bioloji, əqli və mənəvi cəhətdən tam yetkinliyini və vətəndaşlıq hüququ alması xüsusiyyətlərinin məcmusunu ifadə edirsə, «yetkinlik yaşına çatmama» insanda yuxarıda sadalanan bu keyfiyyət göstəricilərinin olmamasını, onun bir insan kimi hələ yetişməməsini, natamam olması vəziyyətini ifadə edir.

«Hüquqi status»un məzmunu adətən, onun hüquq subyektliliyi, hüquq qabiliyyəti, hüquqlar, azadlıqlar və vəzifələr, vətəndaşlıq, prinsiplər, təminatlar, məsuliyyət və s. bu kimi struktur elementlərinin tədqiq edilməsi yolu ilə nəzərdən keçirilə bilər. Bu halda, bir qayda olaraq, hüquqi statusun anlayışı və məzmunu bir-birindən fərqlənmir və onlar eynilik təşkil edirlər. Bununla yanaşı, vətəndaşın statusunun hüquqi təbiətində iki əsas məqam mövcuddur. Birinci məqamda hüquqi status dar mənada, yəni hüquqların və vəzifələrin müəyyən məcmusu kimi başa düşülür. İkinci məqam isə ondan ibarətdir ki, hüquqi statusun məzmununda hüquq və vəzifələrdən başqa, digər elementlər də ehtiva olunur və bu, hüquqi statusun geniş mənada başa düşülməsinə imkan verir. Hüquqi statusun belə başa düşülməsi hüquq normaları, hüquq subyektliliyi, hamı üçün ümumi olan hüquqlar və vəzifələr, onların birliyinin təminatı, vətəndaşlıq, məsuliyyət, prinsiplər, ümumi (status) xarakterli hüquq münasibətləri, qanunla mühafizə olunan mənafelər və s. bu kimi elementlərlə müəyyənləşdirilir. Buradan da aydın olur ki, şəxsin hüquqi statusunun belə başa düşülməsi öz məzmununa görə geniş həcmli elementləri özündə birləşdirən kateqoriya kimi mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə bütün bunlar geniş götürüldükdə onun təcrübədə tətbiqini çətinləşdirir, statusun məzmununda əsas elementi konkret müəyyən etməkdə çətinlik yaradır. Belə ki, əgər uşağın hüquqi statusunun müəyyən edilməsi haqqında danışılarsa, tamamilə aydın olacaqdır ki, hüquqi statusun yuxarıda sadalanan elementlərinin bəziləri, o cümlədən fəaliyyət qabiliyyətsizliyi, məsuliyyət daşımaq imkanı müəyyən mənada şərti xarakter daşıyır. Çünki onların təcrübədə təzahürü uşağın yaşından – zaman göstəricisindən asılı olaraq həll edilir. Bu da onu göstərir ki, uşağın hüquqi statusunun məzmununu təşkil edən bəzi elementlərin realizəsi müəyyən hüquqi faktlarla, daha konkret desək uşağın müəyyən yaş həddinə çatması ilə şərtlənir və belə hüquqi faktların meydana çıxması fəaliyyət qabiliyyəti kimi status elementinin reallaşdırılmasına hüquqi baxımdan imkan verir. Deməli, göstərilən elementlərin bir hissəsi istisnasız olaraq bütün vətəndaşların hüquqi statusunun məzmununu təşkil edə bilməz. Çünki onların heç də hamısı ümumilik əlamətinə malik deyildirlər. Bununla əlaqədar olaraq uşağın hüquqi

---

64 Воеводин Л.Д. Индивудальное и коллективное в конституционном статусе личности // Вестник МГУ. Серия «Право». II, 1997. № 5. с.3

65 Борисов Н.Е. Конституционные основы правового положения несовершеннолетних в Российской Федерации (Проблемы теории и практики): Автореф. дисс... докт.юрид.наук. М., 2004. с.16

66 Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, X c., Bakı: Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1987. s.187

statusuna münasibətdə onun normativ mənada başa düşülməsi, fikrimizcə, daha təqdirəlayiq hesab olunmalıdır. Bununla belə, hüquqi statusun məzmununun ancaq uşağın hüquq və vəzifələri ilə əhatə olunması ilə kifayətlənsək, onda biz bu statusun çoxşaxəliliyini, çoxaspektliliyini və kompleksli xarakterini aşkar etmədən məhdud halda baxmış olarıq. Uşağın ümumi statusunun mahiyyətinin başa düşülməsi üçün onun ancaq hüquq və vəzifələrini diqqət mərkəzində saxlamaq kifayət etmir. Lakin uşağın hüquqi statusunun məzmununa vətəndaşlıq kimi elementin daxil edilməsi, fikrimizcə, uşağın Azərbaycan Respublikasının vətəndaşı kimi məhz hansı hüquq və vəzifələrə malik olduğunu birmənalı şəkildə ayırmağa, onun spesifikliyini, Azərbaycan Respublikasının vətəndaşı olmayan uşaqlarla müqayisədə onun hüquqi vəziyyətini daha dəqiq müəyyən etməyə nail ola bilərik.

Vətəndaşlıq xüsusiyyəti onun ümumi əlamətlərə malik olmasında təzahür edir. Belə ki, Azərbaycan Respublikası vətəndaşlığını Azərbaycanın ərazisində doğulan bütün uşaqlar əldə edirlər. Bu da öz növbəsində o deməkdir ki, uşağın hüquqi vəziyyətini müəyyən edərkən Azərbaycan Respublikasının vətəndaşı olan uşağın, onun ümumi statusunu təşkil edən hüquqlarının və vəzifələrinin kompleksi eyni olur və bu, bütün uşaqlar üçün ümumi səciyyə daşıyır. Çünki hüquq və vəzifələrin həmin kompleksi Azərbaycan Respublikasının qanunvericilik normaları ilə müəyyən edilmişdir.

Uşağın hüquqi statusu heç də həmişə öz müəyyənliyi ilə fərqlənmir. Hüquq ədəbiyyatında belə bir mülahizə mövcuddur ki, uşaq iki müxtəlif vətəndaşlığa, yəni həm Azərbaycan Respublikasının, həm də xarici dövlətin vətəndaşlığına malik ola bilər. İkili vətəndaşlığa malik olan uşaq azərbaycanlı uşağın ümumi statusunu təşkil edən hüquqlara və vəzifələrə faktiki olaraq malik olur. Bununla yanaşı o eyni zamanda mənsub olduğu xarici dövlətin uşaqlarına verilən hüquqları və vəzifələri də əldə edir. Bu zaman belə uşaqda eyni vaxtda bir-birilə bağlı olan ümumi və xüsusi status mövcud olur[67]. Buna görə də onlara ümumi ilə xüsusinin, hissə ilə tamın qarşılıqlı münasibəti kimi baxıla bilər. Göründüyü kimi uşaqların statusunun müəyyən edilməsində və uşaq anlayışının definisiyasının verilməsində müxtəlif fikirlər və mövqelər vardır. Hüquq elminin müxtəlif sahələri bu məsələyə hər biri öz mövqelərindən yanaşmağa üstünlük verirlər. Ümumilikdə götürüldükdə isə «uşaq», «yetkinlik yaşına çatmayan» və s. sinonim anlayışlar asanlıqla başa düşülsə də, qanunvericilikdə onun anlayışına indiyə qədər qəti mövqe bildirilməmişdir. Əslində bu məsələ haqqında danışılarkən ən lokonik ifadə «uşaq» istilahıdır. «Yetkinlik yaşına çatmayan» ifadəsi müxtəlif hüquq sahələrində aydın şəkildə öz ifadəsini tapmışdır. Son illər qəbul edilən qanunların müsbət cəhətlərindən biri onunla bağlıdır ki, müstəqillik illərində qəbul edilən bir çox qanunlarda mürəkkəb söz və hüquq ifadələrinin anlayışlarının verilməsi həm onun mənasının düzgün başa düşülməsinə kömək edir, həm də onun icrası və müdafiəsi ilə bağlı problemlərin həllini asanlaşdırır. Bu baxımdan «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanunundan fərqli olaraq «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Azərbaycan Respublikasının 24 may 2005-ci il tarixli Qanunu mühüm üstünlüklərə malikdir[68]. Bu Qanun beynəlxalq uşaq hüquqları konvensiyalarına və digər beynəlxalq hüquq normalarına uyğun olaraq daha mükəmməl hazırlanmışdır. Bundan başqa həmin Qanun hüquq pozuntularının profilaktikasına dair hələlik yeganə bir Qanun olaraq fəaliyyət göstərir. Digər tərəfdən bu Qanunun 1-ci maddəsinin 1.0.1 bəndində verilmiş anlayışdan görünür ki, yetkinlik yaşına çatmayanlar dedikdə, 18 yaşınadək olan şəxslər başa düşülür. Fikrimizcə, bu anlayış daha anlaqlı və hüquqi baxımdan daha mükəmməl verilmişdir. Bununla belə hesab edirik ki, qanunvericilikdə «uşaq» terminindən istifadə edilməsi daha uğurlu, daha lokanik və daha aydın başa düşülə bilərdi. Bütün bu fikir müxtəlifliklərinin sonu olaraq hesab edirik ki, 18 yaşına çatmayan şəxs «uşaq» anlayışı ilə əhatə edilməmişdir. Buna görə də həmin Qanunda belə bir anlayışın verilməsi aşağıdakı kimi təmin edilməlidir:

«Maddə 1.

---

[67] Летова Н.В. Правовой статус ребенка. - Государство и право, 2010, № 11. с.79
[68] Azərbaycan qanunvericiliyində uşaq hüquqları. Bakı, "Azərbaycan" nəş., 2009. s.205-235 (674)

1.0.1. uşaq – 18 yaşına çatmayan şəxslər hesab edilir».

Bu düzəliş həmin Qanunda, onun adında, ümumiyyətlə «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının 19 may 1998-ci il tarixli Qanununda və digər normativ hüquqi aktlarda da birmənalı şəkildə istifadə edilməsi məqsədəuyğun hesab edilməlidir. Bu fikrimiz həm də ondan qaynaqlanır ki, Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində də məhz «uşaq» terminindən istifadə edilmişdir[69].

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009
2. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, «Hüquq ədəbiyyatı» nəş., 2008
3. Azərbaycan Respublikasının Əmək Qanunları Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009
4. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2006
5. Uşaqlara qarşı zorakılıq, BMT-nin dünya hesabatı. Bakı, Çaşıoğlu nəş., 2007; Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Məlumatı. Bakı, 2011
6. Azərbaycan qanunvericiliyində uşaq hüquqları. Uşaq hüquqları haqqında Konvensiya. Bakı, Azərbaycan nəş., 2001
7. Yeni sənədlər. Qanun toplusu. Bakı, «Qanun» nəş., 1998. № 15-16
8. Cəfərov İ. Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2010
9. "Azərbaycan" qəzeti. 20 iyun 2011-ci il
10. "Dövlət qulluğu haqqında" Qanun. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2011
11. BMT-nin "Uşaqlara qarşı zorakılıq üzrə Baş katibin Ümumdünya Hesabatı". BMT-nin nəşri, 2006
12. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, X c., Bakı: Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1987
13. Azərbaycan qanunvericiliyində uşaq hüquqları. Bakı, "Azərbaycan" nəş., 2009
14. Медведева И., Шишова Т. Безмолвный крик // Советская Россия. 2000. 5 сентября; Романовски Г.Б. Право на жизнь. Архангельск, 2002
15. Линик Л.Н. Конституционное право на жизнь: Введение в теорию. Чебоксары, 2005
16. Попов А.Н. Преступления против личности при смягчающих обстоятельствах. СПб., 2001
17. Конституция Словацкой Республики от 1 сентября 1992 г. Прага, 1992
18. Моргун В.Ф.. Ткачева Н.Ю. Проблема периодизации развития личности в психологии. Учебное пособие. М., 1981
19. Сырых В.М. Теория государства и права: Учебник. М.: ЗАО Юстицинформ, 2005
20. Геллер М.В. Реализация и защита права несовершеннолетнего жить и воспитываться в семье по законодательству Российской Федерации: Дис. ... канд. юрид. наук. М., 2007
21. Зайцев О.Б. Трудовая правосубъектность как правовая категория. Оренбург, 2006
22. Воеводин Л.Д. Индивудальное и коллективное в конституционном статусе личности // Вестник МГУ. Серия «Право». II, 1997. № 5
23. Борисов Н.Е. Конституционные основы правового положения несовершеннолетних в Российской Федерации (Проблемы теории и практики): Автореф. дисс... докт.юрид.наук. М., 2004
24. Летова Н.В. Правовой статус ребенка. - Государство и право, 2010, № 11

[69] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, "Hüquq ədəbiyyatı" nəş., 2009. s.10